*Azərbaycanın minillik tarixi təkcə dövlətlərlə, zəfərlərlə, sərkərdələrlə deyil, həm də cəmiyyətdə qadınların səsi ilə yazılıb. Qədimdən bəri qadınlar böyük imperiyaların qurulmasında, münaqişələrin həllində, elmin və sənətin inkişafında fəal iştirak ediblər.*

*Qüdrətli iskit-saka türklərinin hökmdarı Tomris xatundan alovlanan maarifçilik çırağı, Natəvanın Qarabağın poetik ruhuna bəxş etdiyi incə misralar, Zərifə xanım Əliyevanın Azərbaycan tibb elminə verdiyi töhfələr Azərbaycan qadınının yalnız ailədə deyil, bütöv bir xalqın taleyində oynadığı böyük rolun simvolik nümunələridir.*

# Təhsil qadının gücü, cəmiyyətin gələcəyidir

Azərbaycan qadını XX əsrdə cəmiyyətin əsas sütunlarından biri olaraq tarixin axarını dəyişən gücə çevrildi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə qadınlara seçki hüququnun verilməsi müsəlman dünyasında bir ilk olmaqla Azərbaycan qadınının hüquqi və sosial statusunu möhkəmləndirdi. Bu addım qadınların siyasi və ictimai həyatda iştirakını təmin edən tarixi dönüş nöqtəsi oldu. XX əsrin əvvəllərində Azərbaycan maarifçilik hərəkatı qadınların təhsilə cəlb olunması istiqamətində mühüm təşəbbüslərlə yadda qaldı. Bu dövrdə Həmidə xanım Cavanşir kimi maarifçilər qızların təhsil almaları üçün mübarizə aparır. Həmçinin onlar milli-mədəni irsin qorunmasına və maarifləndirmə işlərinə dəstək verirdilər.

1920-ci ildə Azərbaycanın SSRİ-nin tərkibinə daxil olması ilə qadınların ictimai həyatda fəal iştirakı daha da gücləndi. 1921-ci ildə Bakıda keçirilən Azərbaycan qadınlarının birinci qurultayı respublikada qadın hərəkatının təşkilatlanmasına təkan verdi. Qurultayda qadınların hüquqları, təhsil imkanları və əmək fəaliyyəti kimi mövzular müzakirə edildi. Sovet dövründə Azərbaycan qadınlarının sosial və siyasi həyatda iştirakı təşkilati strukturlar vasitəsilə təmin edildi. 1957, 1967 və 1972-ci illərdə keçirilən qurultaylar qadınların səsini daha ucadan eşitdirdi. Bu dövrdə qadınlar sənaye, kənd təsərrüfatı, təhsil və səhiyyə sahələrində fəal işləməyə başladılar. Qadınların cəmiyyətdəki rolu tədricən artdı, onlar sosial-iqtisadi inkişafın təkanverici qüvvəsinə çevrildilər.

XXI əsrdə Azərbaycan qadınının liderlik bacarıqlarının daha da inkişaf etməsi üçün yeni imkanlar yarandı. Ölkədə qadın hüquqlarının qorunması və onların cəmiyyətdə fəal iştirakının təmin edilməsi istiqamətində ciddi addımlar atıldı.

Bu baxımdan Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın fəaliyyəti xüsusi qeyd olunmalıdır. O, Azərbaycanın Birinci vitse-prezidenti və Heydər Əliyev Fondunun Prezidenti kimi qadınların sosial və ictimai həyatda iştirakının artırılmasına mühüm töhfələr verir. Heydər Əliyev Fondu vasitəsilə həyata keçirilən layihələr qadınların təhsil və səhiyyə sahəsində imkanlarının genişləndirilməsinə xidmət edir. Mehriban Əliyeva həm də beynəlxalq təşkilatlarda Azərbaycan qadınını təmsil edir. Onun təşəbbüsü ilə keçirilən mədəniyyət və humanitar tədbirlər milli-mədəni irsin qorunması və dünyaya tanıdılması baxımından əhəmiyyətlidir. Həyata keçirilən layihələr qadınların iqtisadi müstəqilliyini təmin etməklə yanaşı, onların liderlik qabiliyyətlərini inkişaf etdirmək məqsədi daşıyır.

Mehriban Əliyevanın təşəbbüsü ilə reallaşdırılan layihələr arasında məktəblərin və uşaq bağçalarının tikintisi, sağlamlıq mərkəzlərinin yaradılması, uşaq hüquqlarının müdafiəsi kimi sahələr xüsusi yer tutur.

Azərbaycanın zəngin mədəni irsinin dünyaya tanıdılması kontekstində Heydər Əliyev Fondu vasitəsilə təşkil edilən tədbirlər, sərgilər və festivallar diqqət mərkəzindədir. 2008-ci ildən etibarən Fondun təşəbbüsü ilə təşkil edilən Qəbələ Beynəlxalq Musiqi Festivalı, Muğam Televiziya Müsabiqəsi və digər tədbirlər Azərbaycan mədəniyyətini dünyaya təqdim edən mühüm platformalara çevrilmişdir. Bu tədbirlər Azərbaycanın yerli və xarici musiqiçilər arasında mədəni əlaqələrin qurulmasına və Azərbaycan musiqisinin qlobal səviyyədə tanınmasına xidmət edir. 2012-ci ildən etibarən Bakı Şəhər İcra Hakimiyyəti ilə birgə həyata keçirilən layihələr də bu istiqamətdə əhəmiyyətli rol oynayır. Paytaxtın mədəni irsinin qorunması, tarixi binaların bərpası, mədəniyyət mərkəzlərinin yaradılması və beynəlxalq sərgilərin təşkili Azərbaycanın mədəni turizminin inkişafına təkan vermişdir.

Mehriban Əliyevanın təşkilatçılığı ilə həyata keçirilən ən böyük tədbirlərdən biri də 2015 Avropa Oyunları və 2017 İslam Həmrəyliyi Oyunları olmuşdur. Bu tədbirlər vasitəsilə Azərbaycan təkcə idman arenasında deyil, həm də mədəniyyət sahəsində öz potensialını nümayiş etdirmişdir. Xarici qonaqlara təqdim edilən geniş mədəni proqramlar Azərbaycanın qədim irsinin və müasir mədəniyyətinin uğurlu sintezini göstərmişdir. Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən digər mühüm təşəbbüslərdən biri ilə "Azərbaycan 2020: Gələcəyə Baxış" inkişaf strategiyasıdır. Bu strategiya ölkənin neft-qaz sektorundan asılılığının azaldılması və qeyri-neft sektorunun gücləndirilməsi məqsədilə hazırlanmışdır.

Birinci vitse-prezidentin ictimai fəaliyyətində xeyriyyəçilik də mühüm yer tutur. Heydər Əliyev Fondu vasitəsilə uşaq evlərinin və internat məktəblərinin bərpası, kimsəsiz uşaqlar üçün şəraitin yaxşılaşdırılması, aztəminatlı ailələrə dəstək proqramları onun humanist yanaşmasını ortaya qoyur.

Mehriban Əliyeva üçün qadınların sosial həyatda fəal iştirakı və hüquqlarının qorunması xüsusi əhəmiyyət daşıyır. O, Heydər Əliyev Fondu vasitəsilə qadın hüquqları və gender bərabərliyi mövzusunda bir çox layihələr həyata keçirmişdir. Bu layihələr vasitəsilə qadınların təhsil imkanlarının genişləndirilməsi, onların iş həyatına inteqrasiyası və sosial müdafiəsinin gücləndirilməsi məqsədilə xüsusi proqramlar icra olunur. Həmçinin qadınların liderlik potensialının artırılmasına yönəlik seminarlar, təlim proqramları və təşviqedici kampaniyalar təşkil edilir.

Birinci xanımın fəaliyyət istiqamətləri qadınların liderlik potensialının artırılması, təhsilin inkişafı, iqtisadiyyatın diversifikasiyası və mədəni irsin qorunması kimi vacib mövzuları əhatə edir. Bu fəaliyyətlər həm Azərbaycanın milli maraqlarına, həm də beynəlxalq aləmdə ölkənin müsbət imicinin formalaşmasına xidmət edir.

Bu gün Azərbaycan qadını təkcə təhsil və səhiyyə sahələrində deyil, həm də siyasətdə, sahibkarlıqda və beynəlxalq arenada aktiv fəaliyyət göstərir. Qadınlar dövlət idarəetməsində mühüm postlar tutur, qanunvericilik orqanlarında təmsil olunurlar. Onların təşəbbüsləri ilə həyata keçirilən sosial layihələr milli iqtisadiyyatın və sosial rifahın inkişafına töhfə verir. Həmçinin son illərdə qadınların startap sahəsində fəaliyyəti də artmaqdadır. Texnologiya və innovasiya sahələrində özlərini təsdiqləyən qadınlar Azərbaycan iqtisadiyyatında yeni trendlərin formalaşmasına təkan verirlər. Bu isə göstərir ki, Azərbaycan qadını həm də ölkənin iqtisadi və sosial inkişafının aparıcı qüvvəsinə çevrilmişdir.

Bu barədə **Milli Məclisin deputatı Pərvanə Vəliyeva** deyib: "Azərbaycan qadını tarixən maarifçilik hərəkatının əsas iştirakçılarından olub. XIX əsrdən etibarən qadınların savadlanmasına, cəmiyyətin fəal üzvlərinə çevrilməsinə yönəlmiş təşəbbüslər bu gün də davam etdirilir. Müsəlman Şərqində ilk dünyəvi qızlar məktəbinin 123 il əvvəl məhz Bakıda açılması bu baxımdan dönüş nöqtəsi idi. Hacı Zeynalabdin Tağıyevin təşəbbüsü ilə açılan məktəbdə yüzlərlə savadlı qadın yetişdi, cəmiyyətə faydalı şəxsiyyətlər kimi formalaşdı. H.Z.Tağıyev deyirdi: "Bir oğlana təhsil verməklə təhsilli bir insan, bir qıza təhsil verməklə təhsilli bir ailə qazanmış oluruq".



"Təhsil millətin gələcəyidir", - deyən ümummilli lider Heydər Əliyev təhsili cəmiyyətin intellektual inkişafını təcəssüm etdirən strateji amil kimi dəyərləndirirdi. Bu yanaşma bu gün də ölkənin təhsil siyasətində əsas xətt olaraq qalır. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda təhsil sahəsinə göstərilən diqqət, həyata keçirilən islahatlar, ayrılan maliyyə vəsaitləri və icra olunan layihələr təhsilin dövlət siyasətinin prioritetlərindən biri olduğunu sübut edir.

2024-cü ilin ilk rübündə təhsil sahəsinə 12 milyon 322,4 min manat vəsait ayrılıb. Bu, əvvəlki ilin eyni dövrü ilə müqayisədə 3,7 dəfə çoxdur. Təhsilə bu səviyyədə maliyyə dəstəyi yalnız say göstəricisi deyil, həm də Azərbaycanın gələcəyinə, insan potensialına qoyulan sərmayədir. Elmlə təhsilin vəhdətində formalaşan bu siyasət ölkənin intellektual yüksəlişinə xidmət edir. Statistika göstərir ki, bu səylər artıq öz nəticəsini verir. 2023-cü ildə ali məktəblərə sənəd verən abituriyentlərin 49,52 faizi qızlar olub. Bu, onların getdikcə daha çox təhsil imkanlarından faydalandığını göstərir. Gənc qızların təhsili, cəmiyyətin inkişafı sosial rifahın təmin olunmasında əsas amillərdəndir. Azərbaycanda bu sahədə atılan addımlar, həyata keçirilən layihələr və dövlət səviyyəsində verilən dəstək, gender bərabərliyi və qadınların cəmiyyətdə daha fəal mövqeyə sahib olmaları üçün mühüm rol oynayır.

Ali təhsil almamış qızların gələcəkdə ailələrinə iqtisadi dəstək olmaqda çətinlik çəkmə ehtimalı yüksəkdir. Təhsil qızlara sosial bacarıqlar qazandırır, həm də gənc qadınlara öz hüquqlarını müdafiə etmək, ailədə və cəmiyyətdə daha aktiv rol almaq imkanı verir. Bu imkanlardan məhrum olmaq onların sosial cəhətdən təcrid olunmasına səbəb ola bilər. Azərbaycan dövləti qadınların, xüsusilə də gənc qızların təhsil almalarını milli inkişaf strategiyasının əsas prioritetlərindən biri kimi müəyyən etmişdir. Təqaüd proqramları, dövlət büdcəsi və xarici donorlar hesabına gənc qızlar, xüsusilə sosial həssas təbəqələrdən olanlar üçün xüsusi təqaüdlər təqdim olunur. Ali məktəblərə qəbul imtahanlarında gender balansı təşviq olunur, statistika göstərir ki, son illərdə ali məktəblərə qəbul olan tələbələrin təxminən 50 faizi qadınlardır. Konstitusiya və Gender bərabərliyi üzrə qanunvericilik isə Azərbaycan Respublikasının "Gender bərabərliyi haqqında" qanunu qadın və kişilərin təhsil və məşğulluqda bərabər imkanlara malik olmasını təmin edir.








Gənc qızların təhsili təkcə onların fərdi inkişafı deyil, həm də ailələrin, ümumilikdə cəmiyyətin rifahı üçün strateji əhəmiyyət daşıyır. Bu baxımdan, dövlətin və vətəndaş cəmiyyətinin birgə səyləri ilə qızların təhsilə cəlbi və dəstəklənməsi Azərbaycanın daha ədalətli və davamlı gələcəyini təmin edəcək. Bu gün Azərbaycanın təhsil sistemində qadınların iştirakı yalnız say göstəricisi ilə deyil, keyfiyyətlə də seçilir. Təhsilli qadın cəmiyyətin inkişafında mühüm rol oynayır, o, həm savadlı nəsil yetişdirir, həm də işgüzar vətəndaş kimi ölkənin tərəqqisinə töhfə verir. Uğurlu qadınların həyat hekayəsi sübut edir ki, təhsil qadının gücü, cəmiyyətin gələcəyidir".

Cəmiyyətimizdə qızların ali təhsilinə verilən dəstəklə bağlı **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən verilən məlumatda deyilir:** "Ölkəmizin gələcək inkişafı naminə gənclərin bərabər imkanlar çərçivəsində təhsil almalarının vacibliyini nəzərə alaraq 2021-ci ildən başlayaraq Hacı Zeynalabdin Tağıyev tərəfindən yaradılan Qızlar Məktəbinin 120 illik yubileyi və 11 oktyabr Beynəlxalq Qızlar Günü münasibətilə "Gənc Qızların Təhsilinə Dəstək" kampaniyasına start verilmişdir. Kampaniyanın məqsədi cəmiyyətin diqqətini qızların təhsilinə cəlb etmək, xüsusilə də onların müasir təhsil imkanlarından faydalanmasına dəstək olmaqdır. Bu kampaniyaya qızlar 3 kriteriyaya əsasən seçilir: aztəminatlı ailələrdən və həssas qrupdan olanlar, ali təhsil müəssisələrinə qəbul imtahanlarında yüksək bal toplayanlar, regionlardan gələnlər.

Kampaniya çərçivəsində neft maqnatı Hacı Zeynalabdin Tağıyevin xeyriyyəçilik və maarifçilik ənənələrini davam etdirmək məqsədilə 2021-ci ildə aztəminatlı ailələrdən olan 14 nəfər tələbə qıza dəstək göstərilmişdir. 5 biznes şirkəti və 9 sahibkar qadın "Gənc Qızların Təhsilinə Dəstək" kampaniyasına dəstək göstərmək məqsədilə hər biri bir tələbə qızı öz himayəsinə götürmüşdür. 2021-ci il üzrə isə ali məktəbə yüksək balla daxil olmuş və aztəminatlı ailələrdən olan qızlar əsasən Ağdam (3 nəfər), Zaqatala (2 nəfər), İsmayıllı (2 nəfər), Hacıqabul (2 nəfər), Goranboy ( 2 nəfər) rayonlarından olmuşdur. Kampaniyaya seçilən aztəminatlı və yüksək bal toplamış tələbə qızlardan çoxluq Azərbaycan Tibb Universiteti (4 nəfər), Bakı Dövlət Universiteti (3 nəfər) və Azərbaycan Dillər Universitetinə (3 nəfər) daxil olmuşdur. Digərləri isə Azərbaycan Dövlət İqtisad Universiteti, Memarlıq və İnşaat Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Ali Neft Məktəbinə qəbul olmuşlar. 2021-ci ildə kampaniyaya seçilən 14 qızdan 8-i 600-dən, 6-sı 500-dən yuxarı bal toplamışdır. Dəstək göstərilən tələbə qızlardan 2-si qeyri-ənənəvi sahə üzrə ixtisaslara qəbul olmuşlar (Kimya mühəndisliyi və informasiya texnologiyaları). Kampaniya 2022-ci ildə Elm və Təhsil Nazirliyinin tabeliyində olan Təhsilin İnkişafı Fondunun birgə əməkdaşlığı ilə davam etmişdir. Layihənin davamlılığının təmin etmək məqsədilə AR Elm və Təhsil Nazirliyi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi arasında "Gənc Qızların Təhsilinə Dəstək Kampaniyası" layihəsinin birgə icrası ilə bağlı niyyət protokolu imzalanmışdır. Protokola əsasən əməkdaşlıq formaları kimi ali təhsil müəssisələrinə qəbul imtahanlarında yüksək bal toplayan, aztəminatlı, həmçinin sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan qızların təhsil almaları üçün şərait yaradılması, gənc qızların müasir təhsil imkanlarından faydalanmasına dəstək olunması, yüksəkixtisaslı kadrların hazırlanması, qarşılıqlı faydalı əməkdaşlığın təbliğ edilməsi və təcrübə mübadiləsinin gücləndirilməsi nəzərdə tutulmuşdur.

2021-ci illə müqayisədə 2022-ci ildə kampaniyanın davamı olaraq dəstək göstərilən tələbə qızların sayı 11 nəfər çox olmuşdur. 2022-ci ildə Bakı və Sumqayıt şəhərləri, Füzuli, Biləsuvar, Neftçala, Sabirabad, Masallı, Astara, Qusar, Göyçay, Tərtər, Ağcabədi, Bərdə olmaqla 2 şəhər və 11 rayon üzrə 25 nəfər qıza dəstək göstərilmişdir.

Dəstək göstərilənlər arasında qeyd edilən rayonların hər birindən 3 nəfər olmaqla Füzuli, Bərdə, Masallıdan olan qızlar çoxluq təşkil etmişlər. 2022-ci ildə kampaniyaya seçilən qızlardan 12-si 600-dən, 9-u isə 500-dən çox bal toplamışdır. Digər 4 nəfər isə həssas təbəqədən olduğu üçün kampaniya çərçivəsində onlara dəstək göstərilmişdir. Dəstək göstərilən tələbə qızlardan 7-si qeyri-ənənəvi sahə üzrə ixtisaslara qəbul olmuşlar (aerokosmik, informasiya təhlükəsizliyi, mexanika-riyaziyyat, vergi və bank işi, təbiət elmləri və mühəndislik).

2023-cü ildə (2 mart) Təhsilin İnkişafı Fondunun təşkilatçılığı ilə Elm və Təhsil Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşlığı çərçivəsində Beynəlxalq Qadınlar Gününə həsr edilmiş "Qızların təhsilinə dəstək" mövzusunda konfrans keçirilmişdir. Konfransda "Hənifə Məlikova - Zərdabi adına qızların təhsilinə dəstək" təqaüd proqramı təsis olunmuşdur. Kampaniya "Gənc Qızların Təhsilinə Dəstək" layihəsi kimi davam edir.

Layihə çərçivəsində 2023-cü ildə ali məktəbə yüksək balla daxil olmuş, regionlardan olan, aztəminatlı 55 qızın təhsilinə dəstək göstərilmişdir. 2022-ci illə müqayisədə bu rəqəm iki dəfə çoxdur. Tələbə qızlardan əksəriyyəti Bakı Dövlət Universiteti (11 nəfər), Azərbaycan Dillər Universiteti (11 nəfər), Azərbaycan Dövlət Pedaqoji Universiteti (8 nəfər), Tibb Universiteti (8 nəfər) və Xəzər Universitetinə (5 nəfər) qəbul olmuşlar. 2022-ci illə müqayisədə 2023-cü ildə "Gənc Qızların Təhsilinə Dəstək" layihəsi çərçivəsində 4 nəfər şəhid qızına və bir nəfər şəhid xanımına dəstək göstərilmişdir. 4 nəfər şəhid qızından biri Bursa Uludağ Universitetinə burs (təqaüd) qazanaraq qəbul olmuşdur.

2023-cü ildə davam edən layihə çərçivəsində dəstək göstərilən tələbə qızlar arasında Zaqatala (5 nəfər), Xaçmaz (4 nəfər), İsmayıllı (4 nəfər), Sabirabad (4 nəfər) rayonlarından olanlar üstünlük təşkil etmişdir. Tələbə qızlardan 5-i elektrik və elektronika mühəndisliyi, informasiya təhlükəsizliyi, informasiya texnologiyaları, qida mühəndisliyi kimi qeyri-ənənəvi istiqamətlər üzrə təhsil alırlar.

2024-cü ildə isə layihə çərçivəsində təhsilin İnkişafı Fondu ilə birgə 50 nəfər qıza dəstək göstərilmişdir. Ötən il layihə bütün respublikanı əhatə etmişdir (47 rayon namizəd göndərmişdir). Aztəminatlı ailədən Şəki şəhərindən olan tələbə qızlardan biri 700 bal yığaraq ADA Universitetinə riyaziyyat fakültəsinə daxil olmuşdur. 600-dən çox bal yığan 3 nəfər ADA Universitetinə, 3 nəfər Tibb Universitetinə, 3 nəfər Bakı Dövlət Universitetinə (hüquq fakültəsi), 2 nəfər Bakı Ali Neft Məktəbinə (697 və 656 balla), 1 nəfər Gömrük Akademiyasına, 2 nəfər Azərbaycan Dövlət İqtisad Universitetinə, 1 nəfər Memarlıq və İnşaat Universitetinə daxil olmuşdur. İlk dəfə olaraq layihə çərçivəsində 2024-cü ildə 2 nəfər qız Qarabağ Universitetinə yüksək balla ali təhsil almağa vəsiqə qazanmışdır. Onlardan biri Xocalı şəhərindəndir, 656 balla Qarabağ Universitetinin hüquq fakültəsinə, digər tələbə qız 550 balla eyni təhsil müəssisəsinin riyaziyyat müəllimliyi fakültəsinə, Qax rayonundan tələbə qız isə ilk dəfə olaraq Türkiyə-Azərbaycan Universitetinin kompüter mühəndisliyinə 662 balla daxil olmuşdur.

Təqaüd proqramına seçilən qızlar arasında qeyri-ənənəvi ixtisaslara qəbul olunanlar da az deyil. Bu ixtisaslar (fakültələr) sırasında kimya mühəndisliyi, informasiya texnologiyaları, aerokosmik, informasiya təhlükəsizliyi, təbiət elmləri və mühəndislik, kompüter elmləri, geologiya və geofizika yer alır. Ümumilikdə layihə çərçivəsində 145 qıza dəstək göstərilmişdir".



**Uşaq, yeniyetmə və qadın psixoloqu Leyla Məmmədova** bildirdi ki, bu gün cəmiyyətin daha yaxşı inkişaf etməsi üçün qadınların bilikli, savadlı və geniş düşüncəli olması çox vacib faktordur: "Zənnimcə, qızların ali təhsil almaları təkcə fərdi inkişaf deyil, həm də ailə və cəmiyyətin rifahı üçün böyük əhəmiyyət daşıyır. Təəssüf ki, bu gün də bəzi bölgələrdə "qız uşağına ali təhsil lazım deyil", "onsuz da ərə gedəcək" kimi stereotiplərlə rastlaşırıq. Bu cür yanaşma qızların potensialını məhdudlaşdırır, eyni zamanda cəmiyyətin gələcəyinə də mənfi təsir göstərir. Halbuki həyat göstərir ki, təhsilli qadın yalnız özünü deyil, həm də ailəsini və ətrafındakı insanları inkişaf etdirir. Belə qadınlar daha sağlam düşüncəyə sahib olur, daha güclü və anlayışlı ailələr qurur, övladlarını daha düzgün şəkildə yönləndirirlər. Onların yetişdirdikləri nəsil həm intellektual, həm də psixoloji cəhətdən daha sağlam və balanslı olur. Bu səbəbdən qız uşaqlarının təhsili bütöv bir cəmiyyətin gələcəyinə qoyulan ən dəyərli sərmayədir.

Təhsil, ilk növbədə, dünyanı və özünü anlamaq üçün vasitədir. Ali təhsil alan qızlar müxtəlif sahələrdə bilik və bacarıqlar qazanaraq öz fikirlərini daha sərbəst, əsaslı və aydın şəkildə ifadə etməyi öyrənirlər. Bu isə onların cəmiyyət qarşısında söz demək, haqlarını müdafiə etmək və qərar vermək qabiliyyətlərini artırır. Qızların ali təhsil almaları onların özünəinam səviyyəsinə birbaşa və çox güclü şəkildə təsir göstərir, çünki təhsil alan qız öz ayaqları üzərində dayanmağı bacarır, maddi və mənəvi baxımdan daha az asılı olur. Onlar öz dəyərlərini, istəklərini və fikirlərini qorxmadan paylaşmağı bacarırlar. Nəticə olaraq ali təhsil sadəcə akademik bilik deyil, eyni anda şəxsiyyətin formalaşması, öz gücünə inanması və cəmiyyətdə layiqli yer tutması üçün vacib bir təməl, qadının həyatına yön verən güclü sosial və psixoloji dəstəkdir.

Ali təhsil prosesi insana təkcə bilik qazandırmır, eyni zamanda emosional zəkanın inkişafını təşviq edir, problemlərlə mübarizə bacarığını, çeviklik və uyğunlaşma qabiliyyətini formalaşdırır. Təhsilli qızlar sosial və akademik çətinliklərlə üzləşdikcə daxili resurslarını necə səfərbər etməyi və emosiyaların düzgün şəkildə idarəsini öyrənirlər. Əlavə olaraq qeyd etmək istəyirəm ki, ali təhsil alan qızlarda adətən tənqidə dözümlülük, dəyişkən həyat şəraitinə uyğunlaşma bacarığı, məqsədyönümlülük və gələcəyə dair real planlar qurmaq kimi psixoloji dayanıqlılığın əsas göstəriciləri daha aydın şəkildə özünü büruzə verir.

Təhsilli qadınların övlad tərbiyəsindəki üstünlükləri onların geniş dünyagörüşü, analitik və rasional düşünmə qabiliyyətləri, emosional zəka və səbirli yanaşmalarından irəli gəlir. Onlar uşaqlarına həyatın çətinlikləri ilə necə mübarizə aparmağı, doğru düşünməyi və insanlar arasında əlaqələr qurmağı öyrədirlər, tərbiyə üsulları uşaqların emosional və intellektual inkişafına böyük töhfə verir və gələcəkdə uğurlu, balanslı, müstəqil şəxsiyyətlər olmasına zəmin yaradır. Bu xanımların ailələrində kommunikasiya və empatiya bacarıqları daha güclü şəkildə inkişaf edir. Bu, onların əldə etdikləri bilik, emosional zəka və sosial bacarıqlardan qaynaqlanır. Belə qadınlar ailə daxilində sağlam və qarşılıqlı anlayışa əsaslanan münasibətlər qurmağa daha meyilli olurlar.

Ali təhsilli qadınlar fikirlərini aydın və məntiqli şəkildə ifadə etməyi bacarırlar. Onlar dinləmə mədəniyyətinə malik olur və qarşısındakını başa düşmək üçün empatik yanaşma sərgiləyirlər. Bu, ailədə gərginliklərin azalmasına, anlaşılmazlıqların daha tez həllinə imkan verir. Onlar ailə üzvləri ilə münasibətlərində emosional reaksiya yerinə düşünülmüş davranış sərgiləyirlər. Onlar konfliktləri böyütmək əvəzinə, problemin kökünə enməyi və qarşılıqlı anlaşma yolu ilə həll etməyi seçirlər. Ailə daxilində fərqli fikirlərə hörmətlə yanaşmaq, hər kəsin hisslərinə və fikirlərinə dəyər vermək təhsilli qadınların ünsiyyət üslubunun ayrılmaz hissəsidir. Bu isə ailə üzvləri arasında dərin bağlılıq və inam yaradır.

Ali təhsilli qadınlar cəmiyyətin düşünən beyinləridir. Təhsilli qadınların ictimai fəallığı onların psixoloji inkişafında mühüm rol oynayır. Belə qadınlar cəmiyyətlə daha çox ünsiyyətdə olduqları üçün özlərini daha dəyərli, faydalı və güclü hiss edirlər. Bu isə onların özünəinamını artırır.

Qızların təhsili gender bərabərliyinin formalaşmasında çox önəmli psixoloji mexanizmləri hərəkətə gətirir. İlk növbədə, təhsil qızlarda öz dəyərini və potensialını anlama hissini gücləndirir. Bu isə özünəinam, özünüifadə və sosial cəsarət kimi psixoloji bacarıqları formalaşdırır. Təhsilli qızlar stereotipləri sorğulamağı və cəmiyyətdə daha fəal mövqe tutmağı bacarırlar. Onlar həm ailədə, həm də ictimai aləmdə daha çox söz haqqı əldə edir, hüquq bərabərliyinə yönəlik düşüncələri yayırlar. Qızların təhsili onların öz gücünə inanmasına, səsini cəsarətlə ifadə etməsinə və "mən də varam" deməsinə şərait yaradır. Bu isə cəmiyyətdə bərabərlik üçün ən güclü psixoloji təməl qoyur. Ali təhsilli qadınların cəmiyyətdə daha çox görünməsi digər qızlarda "mümkündür" düşüncəsini oyadır. Bu, onların özlərinə olan inamını artırır, məqsəd qoymaq və ona çatmaq istəklərini gücləndirir. "O bacarıbsa, mən də bacararam" düşüncəsi formalaşır.

Belə qadınların uğur hekayələri qızlara göstərir ki, bilik yolu ilə həm şəxsi, həm də ictimai həyatda fərq yaratmaq mümkündür. Nəticədə, bu motivasiya onları daha çox öyrənməyə, mübarizə aparmağa və öz potensiallarını həyata keçirməyə sövq edir".

**Ləman TƏHMƏZ,**
**"Respublika".**